“Təsdiq edilmişdir”

**ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDUNUN HİMAYƏÇİLİK ŞURASI tərəfindən 03 №li Protokol qərarı ilə**

# İştirakçı banklar tərəfindən Əmanətlərin Sığortalanması Fonduna təqvim haqlarının ödənilməsi və hesabatların təqdim edilməsi

# Q A Y D A L A R I

*(Himayəçilik Şurasının 10 iyun 2009-cu il (Protokol № 14) və 28 oktyabr 2011-ci il tarixli (Protokol № 28) iclaslarında edilmiş əlavə və dəyişikliklərlə)*

**Bakı - 2007**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına və Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra - Fond) nizamnaməsinə müvafiq olaraq hazırlanmışdır və iştirakçı banklar tərəfindən Fonda təqvim haqlarının ödənilməsi, habelə hesabatların təqdim edilməsi qaydalarını müəyyən edir.

1.2. Bu Qaydalarda istifadə olunmuş anlayışlar "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş mənaları daşıyır.

## 2. Təqvim haqlarının ödənilməsi

2.1. Rüblük təqvim haqları "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 13.4-cü maddəsinə uyğun olaraq 2008-ci ilin 3-cü rübünədək qorunmayan əmanətlər və qorunmayan əmanətçilərin əmanətləri istisna olmaqla, fiziki şəxs olan əmanətçilərin hesablarındakı vəsaitlərin orta günlük qalıq məbləğinin 0,15 faiz, 2008-ci ilin 3-cü rübündən başlayaraq 0,125 faiz dərəcəsi ilə hesablanır.

İlk hesabat dövrü üçün rüblük təqvim haqqı „Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 13.3-cü maddəsinə müvafiq olaraq 2007-ci ilin 1-i iyul tarixindən 2007-ci il 30-u sentyabr tarixinədək qorunan əmanətlərin rüb ərzində orta günlük məbləğinin 0.15 faizi həcmində hesablanır.

2.2. ABŞ dolları və ya avrodan başqa digər xarici valyutalarda qorunan əmanətlər üzrə təqvim haqları hər bir iştirakçı bankın öz seçiminə əsasən bütün hesabat dövrləri ərzində yuxarıda qeyd olunan valyutaların (ABŞ dolları və ya avronun) birində Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir.

2.3. Təqvim haqları iştirakçı banklar tərəfindən hər rüb qurtardıqdan sonra 10 təqvim günü ərzində Fonda ödənilir.

2.4. Əmanətin valyutasından asılı olaraq təqvim haqları Fondun Azərbaycan Respublikasının Mərkəzi Bankında (bundan sonra - Mərkəzi Bank) olan aşağıdakı hesablarına ödənilir:

2.4.1. manatda olan əmanətlər üzrə hesablanmış təqvim haqları - manat hesabına;

2.4.2. ABŞ dollarında olan əmanətlər üzrə hesablanmış təqvim haqları - ABŞ dolları hesabına;

2.4.3. Avroda olan əmanətlər üzrə hesablanmış təqvim haqları - avro hesabına.

2.4.4. Əmanətlər başqa xarici valyutada olduqda təqvim haqları ABŞ dolları və ya avro ilə hesabat dövrünün son gününə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir.

## 3. Hesabatların hazırlanması və təqdim edilməsi

3.1. İştirakçı bankda əmanətlər haqqında ümumiləşdirilmiş hesabat bu Qaydalara 1 №-li Əlavədə müəyyən olunmuş formada hazırlanır. Hesabatın forması bu Qaydalara 2 №-li Əlavəyə uyğun olaraq doldurulmalıdır.

3.2. Hesabat rübdə bir dəfə, növbəti ayın 5 iş günü müddətində kağız və elektron (e-mail vasitəsilə) daşıyıcılarda Fonda təqdim olunmalıdır.

3.3. Hesabat MS EXCEL formatına uyğun proqramda tərtib edilir.

3.4. Hər bir iştirakçı bank hesabatın tərtib edilməsinə və Fonda vaxtında təqdim olunmasına məsul şəxsləri təyin etməlidir. Hesabatın sonuncu səhifəsi iştirakçı bankın məsul şəxslərin imzası (vəzifəsi, adı, soyadı göstərilməklə) və möhürü ilə təsdiq edilməlidir.

3.5. Fond hesabatın düzgünlüyünü yoxlayır və hər hansı bir səhv aşkar etdikdə 3 iş günü müddətində banka bildiriş göndərir. Bank bildiriş aldıqdan sonra 2 iş günü ərzində hesabatda müvafiq düzəlişlər edib təkrar Fonda təqdim etməlidir.

## 4. Yekun müddəalar

4.1. Bu Qaydaların tələblərinin pozulmasına görə iştirakçı banklar və onların inzibatçıları qanunvericiliyə müvafiq qaydada məsuliyyət daşıyırlar.

4.2. Bu Qaydalar təsdiq olunduğu gündən qüvvəyə minir.

“İştirakçı banklar tərəfindən
Əmanətlərin Sığortalanması Fonduna
təqvim haqlarının ödənilməsi
və hesabatların təqdim
edilməsi Qaydaları”na
Əlavə 2

## Hesabatın hazırlanmasına dair Təlimat

1. Hissə 4 və Hissə 5 istisna olmaqla Hesabatın digər hissələrinə daxil olan məlumatlar ötən rüb ərzində hər bir təqvim günü üçün gündəlik mühasibat balansına əsaslanan hesabat dövrünün orta rəqəmindən ibarət olmalıdır.

2. Hesabatda göstərilən rəqəmlər tama qədər yuvarlaqlaşdırılmalıdır. Hesabatdakı rəqəmlər cədvəldə əksini tapmış valyutada göstərilməlidir.

3. Hesabatda:

3.1. “əmanət” dedikdə hesablanmış faizlər də daxil olmaqla bankın balansında aparılan cari, əmanət (depozit) və digər hesaba qoyulmuş və ya köçürürlmüş pul vəsaiti;

3.2. “əmanətlərin sayı” dedikdə əmanət hesablarının sayı;

3.3. “əmanətçilərin sayı” dedikdə əmanət hesabı sahiblərinin sayı başa düşülür (bəzi hallarda əmanət sahiblərinin bir neçə əmanət hesabı ola bilər).

4. Bu Təlimatda “Qanun” sözü “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununu nəzərdə tutur.

5. Hesabatın ayrı-ayrı hissələri doldurularkən aşağıdakı izahlar nəzərə alınmalıdır:

6. Milli valyutadan başqa digər xarici valyutada olan əmanətlər hesabat dövrünün son gününə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi çərpaz məzənnələrlə hesablanıb göstərilməlidir.

### Hissə 1

**1-ci bənd:** Maliyyə sektorunun depozitləri istisna olmaqla, bankda olan bütün əmanətləri və əmanətçiləri (hüquqi şəxslər, fiziki şəxslər və s) əhatə edir və rüb ərzində orta günlük qalığ məbləğləri əks etdirilməlidir.

**3-cü bənd:** 3.1 - 3.3-cü bəndlərin cəmindən ibarət olmalıdır.

**3.1-ci bənd:** “Yaxın qohumları” dedikdə isə həmin şəxslərin əri/arvadı, onların valideynləri və övladları, o cümlədən övladlığa götürülənlər, bacı və qardaşları başa düşülür (Qanunun 2.1.5.1-ci maddəsi).

**4-cü bənd:** 4.1 - 4.10-cu bəndlərin cəmindən ibarət olmalıdır (bura 3-cü bənddə qeyd olunan qorunmayan əmanətçilərin əmanətləri daxil edilmir).

**4.9 və 4.10-cu bəndlər:** Əmanətçinin hesabat dövrünün son gününə iştirakçı banka borcu və ya təminatı olduqda təqvim haqları gündəlik olaraq əmanətdən borc və ya təminat məbləğini cıxmaqla qalıq məbləğinin rüb ərzində orta günlük qalıq məbləğindən hesablanır.

Rüb ərzində iştirakçı banka borcu (təminatı) olan, lakin hesabat dövrünün son gününə borcu (təminatı) ödənilmiş əmanətçinin təqvim haqları hesablanarkən rüb ərzindəki borcunun və təminatının məbləğləri nəzərə alınmır. Bu zaman əmanətçinin əmanəti və borcu (təminatı) müxtəlif valyutalarda olduqda əmanət məbləğindən eyni valyuta üzrə ilkin olaraq borc (təminat) məbləği çıxılır, sonra ən kiçik əmanət məbləğinin borc (təminat) məbləğinin valyutasının ekvivalentindən borc (təminat) məbləğinin qalığı çıxılır, daha sonra isə ən iri əmanət məbləğinin borc (təminat) məbləğinin valyutasının ekvivalentindən borcun (təminatın) qalıq məbləği çıxılır və təqvim haqqı əmanətin qalıq məbləğinin valyutasında hesablanır (məs.: əmanət 200 manat, 300 ABŞ dolları və 500 avrodur, lakin borc 500 manatdir. Beləliklə, ilkin olaraq 200 manatdən 500 manat çıxılır (yəni 200-500=-300), ən kiçik əmanət məbləğinin manat ekvivalendindən borcun (təminatın) qalıq məbləği çıxılır (yəni 255.78-300=-44.22) Son olaraq avronun manat ekvivalentindən borcun (təminatın) qalıq məbləği çıxılır (yəni 582.65-44.22=538.43) və təqvim haqqı hesablanır). Misal gətirilən halda məzənnələr 01 sentyabr 2007-ci il tarixə götürülmüşdür.

**5-ci bənd:** 2-ci bənddə olan rəqəmlərdən 3 və 4-cü bəndlərdə olan müvafiq rəqəmlər çıxılmalıdır.

**Hissə 2**

6.4.a və 6.4.b bəndləri: digər xarici valyutada olan depozitlərin (ABŞ dolları və avrodan başqa) təqvim haqları ABŞ dolları və ya avro ilə bankların seçimi ilə ödənildiyinə görə bu bəndlərdən biri doldurulmalıdır.

**6.4.a və 6.4.b bəndləri:** 6.4.1-6.4.(...) bəndlərinin cəmindən ibarət olmalı və başqa bütün xarici valyutada (ABŞ dolları və avrodan başqa) olan əmanətlər daxil etməlidir. Bu əmanətlər üzrə ABŞ dolları və avroda ekvivalentin hesablanması üçün Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi çarpaz məzənnələr (hesabat dövrünün son gününə) əsas götürülür.

6.4.5-ci bəndindən sonra başqa valyutada olan əmanətlər əlavə bəndlərə daxil edilməlidir.

**7-ci bənd:** 6.1, 6.2, 6.3 və 6.4.a və ya 6.4.b bəndlərin cəmi daxil edilməlidir (yoxlama məqsədi ilə).

**Hissə 3**

8-ci bənd: 6.1, 6.2, 6.3 və 6.4.a və ya 6.4.b bəndlərdə olan rəqəmlər daxil edilməlidir. (hesablar cədvəlin başlığında göstərilən valyutada olmalıdır).

**9-cu bənd:** sığorta haqları bu Qaydaların 2.1-ci bəndinə uyğun müvafiq faiz dərəcələri ilə hesabatda əks olunmalıdır.

Qanununun 14-cü maddəsində müəyyən edilmiş hallarda əlavə haqlar ödənildikdə, bu hissədə əlavə haqların dərəcəsi və hesablanmış məbləğlər əks olunur.

**Hissə 4**

Hesabat dövrünün son gününə olan məlumatlar daxil edilməlidir.

**11-17-ci bəndlər:** Fiziki şəxslərin cəmi qorunan əmanətlərinin məbləği və vulyutaya görə təsnifatı barədə məlumat Fond tərəfindən sığorta hadisəsi baş verdikdə Fondun maliyyə vəziyyəti haqqında daimi aydın təssəvür yaratmaq üçün doldurulur.

**18-ci bənd:** 11-17-cı bəndlərin cəmi daxil edilməlidir.

“ **Hissə 5**

Hesabat dövrünün son gününə olan məlumatlar daxil edilməlidir.

**19-29-cu bəndlər:** İştirakçı bankda yalnız bir valyutada qorunan əmanəti olan fiziki şəxslər haqqında məlumat Fond tərəfindən sığorta hadisəsi baş verdikdə Fondun xarici valyutada olan kompensasiya öhdəlikləri barədə daimi aydın təsəvvür yaratmaq üçün doldurulur.

Cədvələ (19-29-cu bəndlər) yalnız bir valyutada qorunan əmanəti olan fiziki şəxslər və onların əmanətləri haqqında məlumat daxil edilir. Əgər fiziki şəxsin iştirakçı bankda iki və ya daha artıq valyutada qorunan əmanəti varsa, həmin şəxsin qorunan əmanətləri haqqında məlumat cədvələ daxil edilmir. Məsələn: A və B adlı fiziki şəxslərin hər birinin ayrılıqda iştirakçı bankda yalnız 5000 ABŞ dollarında qorunan əmanəti, C adlı fiziki şəxsin yalnız ABŞ dollarında 10 000 və 20 000 ABŞ dolları məbləğində iki ayrı qorunan əmanəti, D adlı fiziki şəxsin yalnız 10 000 İngilis funtunda qorunan əmanəti, E adlı fiziki şəxsin 100 000 Rusiya rublunda və 50 000 Türk lirəsində iki qorunan əmanəti, F adlı fiziki şəxsin 50 000 Qazaxıstan tengəsində (digər valyuta), G adlı fiziki şəxsin 30 000 Polşa zlotasında (digər valyuta), H adlı fiziki şəxsin isə 50 000 İsveçrə frankında qorunan əmanəti var. Bu halda A, B, C-nin məlumatları 20-ci bəndə əmanətçilərin sayı 3, valyutada məbləğ (5000+5000+10000+20000) 40 000, D-nin məlumatları 23-cü bəndə əmanətçilərin sayı 1, valyutada məbləğ 10 000 olmaqla daxil edilir. F və G-nin cədvəldə nəzərdə tutulan valyutalarda deyil, digər valyutaların birində qorunan əmanətləri olduğu üçün onların məlumatları 29-cu bəndə əmanətçilərin sayı 2 və valyutada məbləğ göstərilmədən hesabat dövrünün sonuna Qazaxıstan tengəsi və Polşa zlotası üzrə Mərkəzi Bankın müəyyən etdiyi məzənnə (bundan sonra məzənnə- M) əsas götürülməklə hər birinin ayrılıqda hesablanmış AZN ekvivalentinin cəmi (50 000 x M_tengə + 30 000 x M_zlota) daxil edilir. H-in məlumatları 24-cü

bəndə əmanətçilərin sayı 1, valyutada məbləğ 50 000 olmaqla daxil edilir. E-nin iştirakçı bankda birdən artıq valyutada qorunan əmanəti olduğu üçün onun qorunan əmanəti haqqında məlumat cədvələ daxil edilmir.

**30-cu bənd:** 19-cu bənddən 29-a (daxil olmaqla) qədər olan bəndlər üzrə əmanətçilərin cəmi və hesabat dövrünün sonuna Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi məzənnələr əsas götürülməklə 19-cu bənddən 29-a (daxil olmaqla) qədər olan bəndlərdə göstərilən valyutalarda qorunan əmanətlərin AZN ekvivalentinin cəmi daxil edilir.”